| | | |
|---|---|---|
| **Ümumi məlumat** | Fənnin adı, kodu və kreditlərin sayı | **EDU 437 Tarixin tədrisi metodikası, 6 AKTS** |
| | Departament | Təhsil |
| | Proqram (bakalavr, magistr) | Bakalavr |
| | Tədris semestri | 2024/25-ci tədris ilinin payız semestri |
| | Fənni tədris edən müəllim (lər) | doktorant Kəmalə Mustafayeva |
| | E-mail: | kmustafayeva@khazar.org |
| | Telefon: | |
| | Mühazirə otağı/Cədvəl | I gün (15:20-16:50); (17:00-18:30) (Neftçilər korpusu) |
| | Məsləhət saatları | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | EDU 101 Təhsilə giriş | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1. Mühazirə mətnləri<br>2. M.M. Əmirov Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası. Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, 2011/2014<br>3. M.M. Əmirov "Orta məktəbdə tarixin tədrisinin aktual problemləri" Bakı, 2009<br>4. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər ). Bakı, 2013<br>5. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) (VI-XI siniflər). Bakı, 2013<br>**Əlavə vəsaitlər:**<br>6. İ. Cəbrayılov "Azərbaycan tarixinin tədrisi metodikası" Bakı, 2006<br>7. Akif Nəzərov. Müasir təlim texnologiyaları (Mühazirə xülasələri) dərs vəsaiti. Bakı, 2012<br>8. Z.Veysova. Fəal /interaktiv təlim: müəllimlər üçün vəsait. UNİCEF, 2007, 154 səh. | |
| **Kursun təsviri** | Tarixin tədrisi metodikası kursunda tələbələrə Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində Azərbaycan tarixi və Ümumi tarix fənlərinin tədrisi prosesinin təşkili, müvafiq məktəb dərslikləri ilə işləmək, tarix fənninin tədrisi prosesində şagirdlərə bacarıq və vərdişlərin aşılanması, tarixi anlayışların mənimsədilməsi metodikası öyrədilir. Kursun məzmun xəttini interaktiv dərsin müxtəlif modelləri və tipləri, fənlərarası və fəndaxili əlaqələndirmələr, sinifdənxaric iş metodikası təşkil edir. | |
| **Kursun məqsədləri** | Kursun əsas məqsədi məktəbdə tarix fənninin müasir interaktiv təlim metodikasının praktiki istiqamət və tələblərinin öyrədilməsidir. O cümlədən, gələcək tarix müəllimlərinin praktiki dərsin təşkilinə hazırlanmasıdır. | |

<table>
<tr><td rowspan="1">Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələr:<br>• Məktəb tarix kursunun inkişafını biləcək;<br>• Azərbaycanda ümumtəhsil məktəblərində tarix təhsilinin müasir strukturunu mənimsəyəcək;<br>• Tarix dərslərində interaktiv metodları tətbiq etməyi bacaracaq;<br>• İnteraktiv dərsin müxtəlif modelləri ilə işləməyi bacaracaq;<br>• Təlim məqsədlərini həyata keçirmək üçün məqsədəuyğun üsul və formalardan istifadə etməyi bacaracaq;<br>• Fəal təlim mühiti təmin edərək müəllim-şagird (həmçinin, şagird-şagird) əməkdaşlığını quraraq müstəqil öyrənmə mühitini təşkil etməyi bacaracaq;<br>• Tarix dərslərinin tədrisi zamanı fəndaxili və fənlərarası inteqrasiya və sinifdənxaric işlərin təşkilini tətbiq etməyi bacaracaq;<br>• Şagird nailiyyətlərinin qiymətləndirilmə vasitələrindən istifadəni bacaracaq.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Məşğələ</td><td colspan="2">+</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Praktiki dərs</td><td>29 dekabr</td><td>10</td></tr>
<tr><td>Tapşırıq</td><td>Hər dərs</td><td>10</td></tr>
<tr><td>Yoxlama (quiz)</td><td>Oktyabr və dekabr</td><td>10</td></tr>
<tr><td>Aktivlik</td><td>Hər dərs</td><td>5</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Noyabr</td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td>Yanvar</td><td>35</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Praktiki dərs<br>Tələbə öz istəyi ilə ümumtəhsil məktəblərinin V-XI siniflərini əhatə edən Azərbaycan tarixi və Ümumi tarix fənləri üzrə mövzulardan birini seçərək interaktiv təlim metodlarından istifadə edərək hazırlamalıdır. Praktiki dərsdə əsas diqqət edilən tələbə tərəfindən hazırlanan qrup işi və prezentasiyanın strukturu olacaqdır. Tələbə prezentasiyada dərsin 7 mərhələsini ayrı-ayrı slaydlar şəklində təqdim etməlidir. Burada məqsəd gələcəyin müəllimi olan tələbənin dərs hazırlama və təqdimetmə bacarığının inkişaf etdirilməsidir.<br>Müddəti: Aralıq imtahanından sonra noyabr və dekabr ayları ərzində dərs təqdimatları təhvil verilməlidir. Sonuncu dərs həftəsindən sonra təqdimat etmək üçün əlavə vaxt verilmir. Hər bir tələbəyə təqdimat üçün 10 dəqiqə vaxt ayrılır. Tələbələrin öz istəyi ilə praktik dərsə hazır olduqları günə maksimum 5 tələbə üçün vaxt ayrılır. Noyabr ayından etibarən təqdimetmə üçün günlər cədvəl şəklində salınacaqdır.<br>Qeyd: Prezentasiya Power Point və ya başqa platformalardan istifadə etməklə hazırlanmalıdır. Tələbə öz təqdimatını dərsi təqdimetməzdən ən azı 2 gün öncə müəllimə elektron poçt ünvanından göndərməli və ya Microsoft Teams platformasında fənn üçün açılan qrupda öz adına qovluq açıb yerləşdirməlidir. Plagiat və köçürmə olan işlər qəbul edilməyəcəkdir.</td></tr>
</table>

| | |
|---|---|
| | **Tapşırıq**<br>Fənn müəllimi tərəfindən əsasən praktiki tətbiq olunacaq mövzular üzrə semestr müddətində 5 dəfə veriləcək. Tələbələr tapşırığı fərdi şəkildə hazırlamalı və dərsdə təqdim etməlidir. Məzmunundan asılı olaraq, tapşırıqlar Word, Power Point  və ya esse formasında, həmçinin, qrafik və ya cədvəl formasında tələb olunacaqdır. Hər bir tapşırıq maksimum 2 balla qiymətləndiriləcək. Yazılı şəkildə olan tapşırıqların həcmi 1 səhifədən artıq olmamalıdır. **Tapşırığın mütləq tələbə tərəfindən oxunub təqdim edilməsi tələb olunur. Bu tapşırığın məqsədi gələcək müəllimlərin təqdimetmə, qısa müddətdə kiçik araşdırma aparmaq vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsidir.**<br>**Yoxlama (quiz)**<br>Birinci yoxlama noyabr ayının ilk həftəsi aralıq imtahanından öncə (5 bal), ikincisi isə dekabrın üçüncü həftəsi final imtahanından öncə (5 bal) nəzərdə tutulur. Hər iki yoxlamada 2,5 ballıq 2 açıq sual veriləcəkdir. Hər bir yoxlamaya 20-30 dəqiqə vaxt ayrılır. Köçürmə halında yoxlama işi ləğv edilir. **Yoxlamanın məqsədi keçilən mövzular üzrə biliklərin möhkəmləndirilməsi, tələbələrin imtahanda açıq sualların cavablandırılmasına hazırlıqlı olmasına kömək etməkdir.  Yoxlamada üzrsüz səbəbdən iştirak etməyən tələbə üçün yenidən yoxlama keçirilmir.**<br>**İstisna:** Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) yoxlama işində iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbəyə yenidən yoxlama keçirilə bilər.<br>**Aktivlik**<br>Dərs prosesində müəllim tərəfindən keçilən mövzu ətrafında və ümumtəhsil məktəblərində tarix dərsləri ilə bağlı sual-cavab və diskussiya xarakterli müzakirələrdə aktiv şəkildə iştiraka görə verilir. Bu müzakirələrə heç bir şəkildə qoşulmayan və öz fikirlərini şifahi şəkildə ifadə etməyən tələbə aktivlik 0 balla qiymətləndiriləcəkdir. Dərsdə sakit oturmaq və ya dərsə mane olmamaq kimi xüsusiyyətlərə görə tələbə aktivlik balı almayacaqdır. Bu cür müzakirələrdə tələbənin mövzu ilə əlaqəsi olmayan, yersiz danışıq və ifadələri qazandığı balı itirməsi ilə nəticələnəcəkdir.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Dərsə 10 dəqiqə gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. Tələbələr müəyyən səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərin buraxılması haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>**İmtahanlar**<br>Aralıq imtahanı oktyabr ayında tədris olunan mövzular üzrə, final imtahanı noyabr və dekabr ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.<br>**Fənni bitirmək qaydası**<br>Univesitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər. |

| | |
|---|---|
| | **İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.<br>**Tələbənin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini pozmağa və ya qeyri-etik hərəkətlər etməyə, həmçinin tələbələrin icazəsiz müzakirələrinə və mobil telefondan istifadəsinə icazə verilmir. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | **23.09.2024** | Sillabusla tanışlıq. Tarixin tədrisi metodikasına fənninə giriş. Tarix təliminin məqsədi. | 2. I Bölmə, səh 9-15 |
| 2. | **30.09.2024** | Məktəb tarix kursunun inkişaf mərhələləri | 2. II Bölmə, səh. 29-41 |
| 3. | **07.10.2024** | Məktəb tarix dərsliyi.<br>Tarix təliminin idrakı, psixoloji, didaktik əsasları | 2. V Bölmə, səh 91-115<br>2. VI Bölmə, səh 115-137 |
| 4. | **14.10.2024** | Tarix təhsili və təlimi.<br>Təlim metodları və onların təsnifatı | 2. XI-XIV Bölmə, səh. 247-321; |
| 5. | **21.09.2024** | Tarix təhsilinin müasir sistemi və məzmunu.<br>Müasir təhsildə məzmun standartları | 2. III Bölmə, səh. 64-72. 5. II Fəsil, səh. 9, 14, 24-25 |
| 6. | **28.10.2024** | Tarix dərslərinin tədrisi zamanı fəndaxili və fənlərarası inteqrasiya | 2. I Bölmə, səh. 17-19, XV Bölmə, səh, 330, |
| **Aralıq imtahanı** | | | |
| 7. | **04.11.2024** | Tarix təliminin təşkilinə verilən əsas tələblər.<br>Tarix dərslərində əsas təlim metodları. Ənənəvi və müasir dərsin paradiqmaları | 4. səh. 49-55<br>4. səh. 56-62 |
| 8. | **11.11.2024** | **Bayram günü** | |
| 9. | **18.11.2024** | Fəal təlim metodları və onların tətbiqi yolları | 4. səh. 42-56 |
| 10. | **25.11.2024** | İnteraktiv təlimin təşkilində istifadə olunan iş formaları və texnikalar. | 2. səh. 47, 9. Səh 63-66 |
| 11. | **02.12.2024** | Tarix dərsinin strukturu.<br>İnteraktiv dərsin müxtəlif modelləri. | 4. səh. 60-62, 66-75 |
| 12. | **09.12.2024** | Şagirdlərin biliklərinin yoxlanılması və qiymətləndirilməsi | 2. XVIII Bölmə, səh. 583-621 |
| 13. | **16.12.2024** | Şagirdlərin tarixi biliklərinin formalaşması və tarixi anlayışlar üzrə iş | 2. VIII Bölmə, səh. 186-193; |
| 14. | **23.12.2024** | Tarix müəlliminin təlim fəaliyyətinin planlaşdırılması. Təhsilin məzmununu əks etdirən sənədlər | 4. Səh. 75-95;<br>2. III Bölmə, səh. 55-64 |
| 15. | **30.12.2024** | Sinifdənxaric iş və onun tarixin tədrisində rolu | 2. XXX Bölmə, səh. 629-641; |
| **Final imtahanı** | | | |